Könlüm keçir Qarabağdan...

Ürəyim çırpınmaz, nəbzim döyünməz.
Mənim sizin kimi arxam olmasa.
Kiçik bir zərər də üzümə gülməz
Böyük qələbəyə inam olmasa!

Ölmərəm, gözlərəm o günü qardaş-
Bayrağım Şuşaya sancılan günü.
Bu bağlı yolların düyünü qardaş,
Atəş xətlərində açılan günü.

(Əşrəf Veysəlli)

Hələ 1988-ci ildə başlayan Qarabağ münaqişəsi böyük miqyaslı müharibəyə çevrilərək Dağlıq Qarabağ və ətrafındakı yeddi rayonun Ermənistan tərəfindən işğalı ilə nəticələnib. Uzun illər ərzində Ermənistan tərəfi bütün beynəlxalq hüquqi normaları pozaraq işğal olunmuş ərazilərdə yerləşən Azərbaycan xalqının mədəni irsinin tərkib hissəsi olan tarix və memarlıq abidələrini məhf edib və ya ermənilləşdirib.

Bu yaxınlarda Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu, AMEA Hüquq və İnsan Haqları İnstitutu və UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının birgə əməkdaşlığı çərçivəsində "Azərbaycanın işğal olunmuş ərazilərindəki tarix və mədəniyyət abidələrinə vurulan zərər" adlı iri layihə həyata keçirilib. Layihənin ideya müəllifi Azərbaycanın İşğal Olunmuş Ərazilərindəki Tarix və Mədəniyyət Abidələrini Müdafiə Təşkilatı ictimai birliyinin sədri,AMEA Hüquq və İnsan Haqları İnstitutunun əməkdaşı Faiq İsmayılov, məsləhətçiləri - institutun direktoru, hüquq elmləri doktoru, professor Aytən Mustafazadə və Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyevadır.

Layihə çərçivəsində Azərbaycan, rus, ingilis və fransız dillərində eyniadlı kitab və "Azərbaycan Respublikasının işğal olunmuş Dağlıq Qarabağ ərazisindəki tarix və memarlıq abidələrinin kataloqu" nəşr edilib.

"Azərbaycanın işğal olunmuş ərazilərindəki tarix və mədəniyyət abidələrinə vurulan zərər" kitabında ermənilərin Osmanlı və İran ərazilərindən Azərbaycan torpaqlarına köçürülməsi, həmçinin 1836-cı ildə Alban Patriarxal Kilsəsinin erməni Qriqoryan kilsəsinin tabeçiliyinə verilməsi və bundan sonrakı proseslərdən söhbət açılır.Müəllif saxtalaşdırmalara məruz qalan alban məbəd memarlığının inciləri olan Xudavəng, Gəncəsər, Ağoğlan, Urek və digər abidələr haqqında ətraflı danışaraq qeyd edir ki, "bütün bu vandallıqları ifşa etmək üçün Cənubi Qafqazda xristianlıq dövrü bazilika və monastırlarının tikinti quruluşunun öyrənilməsi böyük əhəmiyyət kəsb edir".

Vəsaitdə işğal olunmuş ərazilərin ayrı-ayrı rayonları üzrə tarix və mədəniyyət abidələrinə dəyən zərər haqqında bəhs edilir: Laçın (74), Kəlbəcər (91), Qubadlı (71), Cəbrayıl (93), Zəngilan (56), Füzuli (71), Ağdam (140), Xocavənd (93), Şuşa (215), Xocalı (28). Bu zaman vurğulanır ki, dövlət tərəfindən qeydə alınan 903 abidə arasında həm yerli və regional, həm də beynəlxalq əhəmiyyətli abidələr var. Həmçinin bu ərazidə 1647 dövlət qeydiyyatında olmayan abidələr yerləşir. F.İsmayılov həm yuxarıda qeyd edilən, həm də dövlət qeydiyyatında olan daşınan abidələrə vurulan ziyanın milyardlarlaABŞ dolları həcmində olduğunu bildirir.

Kitabın "Erməni xaçdaşları: mifologiya, yoxsa tarixi reallıq?!" adlı bölməsində xristianlıqdan əvvəlki dövrlərdə xaçların yaranma tarixindən və sonrakı dövrlərdə Qafqaz Albaniyasında xristianlığın və xristianlıq incəsənətinin inkişafından, həmçinin alban xaçlarının səciyyəvi xüsusiyyətlərindən söhbət açılır:"Alban dövrünün sonlarında alban xaç daşlarının üzərinə həkk olunan təsvirlər əvvəlcə iki, sonralar üç din hakimiyyəti altında toplanmış və özlərində harmonik olaraq müxtəlif ayin və adətlərin simvolikasını əks etdirmişdir. Alban daş yazı nümunələrinin (xaçdaşlarının, başdaşlarının və nişandaşlarının) bax bu cür özünəməxsusluğu onları digər xalqların daş yazı nümunələrindən köklü surətdə fərqləndirir". Müəllif ermənilər tərəfindən işğal olunan ərazilərdə erməni xaçdaşlarının yerləşdirilməsi, alban xaçdaşlarının mənimsənilməsi, erməni kilsələrinin inşası və alban memarlıq abidələrini dəyişdirib ermənləşdirilməsi nəticəsində Azərbaycan torpaqlarının öz adlarına çıxarılması məsələsinə də ətraflı toxunur. Burada həmçinin, Azərbaycanın mədəniyyət və musiqi ocağı olan Şuşa şəhərinin çoxsaylı abidələri haqqında bəhs edilir, işğaldan azad olunandan sonrakı bərpa işlərinə dair təkliflər irəli sürülür.



Monoqrafiyada erməni işğalçıları tərəfindən xüsusi vandalizmə uğrayan İslam dini abidələrinə də geniş yer ayrılır. Şuşa, Ağdam, Qubadlı, Füzuli, Cəbrayıl, Laçın, Zəngilan, Kəlbəcər rayonlarında yerləşən əzəmətli məscidlər (Dağlıq Qarabağ və ətraf rayonlarda 67 məscid rəsmi fəaliyyət göstərirdi), ibadət yerləri, qəbirsanlıqlar və epiqrafik abidələr haqqında danışaraq müəllif 63 məscidin tamamilə, 4 məscidin isə qismən dağıdılaraq yararsız hala salındığını bildirir.

Tədqiqatı yekunlaşdıraraq F.İsmayılov vurğulayır: "İşğal altındakı ərazilərdə azərbaycanlılara məxsus abidələrin ermənilər tərəfindən dağıdılması onların özlərinə məxsus üsulla həyata keçirilir. Belə ki, abidəni əvvəlcə kiçik hissəciklərə bölür, sonra isə bir neçə yüzmetr ərazidə ətrafa səpələyirlər ki, bu hissələrin nə vaxtsa bir yerə toplanması ilə yenidən abidələrin bərpası mümkün olmasın. Monumental xatirə abidələrini isə əksər hallarda sökmür, abidənin üzərindən lövhələri və barelyefləri çıxararaq erməni dilində yazı lövhələri və barelyeflərlə əvəz edirlər..."

Vəsaitin arxeologiya və memarlıq abidələrinə dəymiş zərərin müəyyənləşdirilməsi qaydalarına həsr edilən bölmələri xüsusi maraq kəsb edir. Burada beynəlxalq qiymətləndirmə standartlarına uyğun olaraq abidələrin dəyərini hesablamaq üçün düsturlar təqdim olunur. Bu zaman abidələrin materialları, onların yerləşdikləri ərazilər, abidələrin aid olduqları tarixi dövr, onların qorunub saxlanılmasına təsir edən təbii və antropogen amillər, həmçinin abidələrin tədqiqi və bərpasına xərcləneçək vəsaitlər nəzərə alınır.

Nəticədə müəllif işğalçı ölkə tərəfindən Azərbaycana vurulan maddi və mənəvi zərərin ödənilməsi üçün hüquqi bünövrənin hazırlanmasının zəruriliyindən danışaraq qeyd edir ki, ilkin hesablamalara görə, işğal nəticəsində Azərbaycan əhalisinə, ərazisinə, iqtisadiyyatına, mədəniyyətinə, ekologiyasına, flora və faunasına vurulmuş maddi zərərin ümumi miqdarı yüzmilyardlarla ABŞ dolları ilə ölçülür. Monoqrafiyada münaqişə və müharibələrdən zərər çəkmiş tərəflərin təzminat alması məsələlərinin hüquqi həll mexanizmlərini hazırlamaq məqsədilə BMT Təhlükəsizlik Şurası və Baş Assambleyası, həmçinin digər beynəlxalq təşkilatlar tərəfindən qəbul edilən müvafiq qətnamələrdən söhbət açılır. Bu sənədlərə əsaslanaraq Azərbaycan tərəfi sözügedən problemin həlli üçün hüquqi baza yaradır ki, bu da "Ermənistan təcavüzünün nəticələrinin aradan qaldırılmasının və bütövlüklə münaqişənin nizamlanması prosesinin vacib aspektlərindən biridir".

"Azərbaycan Respublikasının işğal olunmuş Dağlıq Qarabağ ərazisindəki tarixi və memarlıq abidələrinin kataloqu"nda Dağlıq Qarabağda yerləşən daşınmaz və daşınan abidələrin (saray, məbəd, körpü, qala, muzey, heykəl və büst, kurqan, nekropol, bazilika, monastırlar və s.) rəngarəng fotoşəkilləri, həmçinin Şuşa, Xocavənd, Xocalı və Ağdərə rayonları haqqında tarixi məlumatlar yer alıb.

Beləliklə, bütün sadalananları, həmçinin son hadisələri nəzərə alaraq qeyd edə bilərik ki, AMEA Hüquq və İnsan Haqları İnstitutunun yuxarıda qeyd olunan beynəlxalq qurumlarla əməkdaşlıq çərçivəsində həyata keçirdiyi layihə ölkə alimlərinin tarixi ədalətin bərpası və Azərbaycan xalqının mədəni, arxeoloji və memarlıq irsi haqqında məlumatların geniş ictimaiyyətə çatdırılması prosesinə verdiyi sanballı töhfədir. Bu cür elmi araşdırmalar və hesablamalara əsaslanaraq biz, Azərbaycanın ən yeni tarixində üzləşdiyi ağrılı məsələlərin həllinə doğru əminliklə addımlayırıq.

Nəzmin CƏFƏROVA,
sənətşünaslıq üzrə fəlsəfə doktoru